# ADZONE
/360

# Haqqımızda

Adzone 360 – 2012-ci ildən marketinq innovasiyaları sahəsində liderlərdən biridir. Biz tipik marketinq agentliyi deyil, sizin bütün marketinq ehtiyaclarınız üçün hərtərəfli həllər təklif edirik.

Müxtəlif xidmətlərimiz xüsusi tədbirlərin planlaşdırılmasından, rəqəmsal strategiyaların hazırlanmasına və yaradıcı ideyalarınızı reallaşdırmasınadək tələblərinizi təmin etməyi hədəfləmişik. Biz ümumi kütlədən seçilən və hədəf auditoriyanıza qalıcı təsir bağışlayan kampaniyaların yaradılmasına inanırıq. Keyfiyyətli marketinq təkcə diqqəti cəlb etmək deyil - bu, cəlbedici hekayələr, fərqli strategiyalar və kreativ kampaniyalar yaratmaqdır.

Biz ideyadan reallaşdırmayadək uğurlu səyahətinizdə sizin tərəfdaşınızıq və hər addımda yanınızda olmağa, brendinizi yeni zirvələrə aparmağa kömək etmək üçün burdayıq.

# Xidmətlər

Gəlin düşüncələrinizi reallığa çevirək.

## 01 Tədbir

- Forumlar və konfranslar
- MICE-DMC
- Festivallar
- Korporativ tədbirlər
- Onlayn və Hibrid tədbirlər
- BTL kampaniyaları

## 02 Kreativ

- Yaradıcı konsepsiya
- 2D/3D animasiya
- Brendinq
- Kopiraytinq
- Qablaşdırma
- Ssenarilər

## 03 Strategiya

- Bazar araşdırması
- Konsepsiyaların hazırlanması və layihələndirməsi
- Media yerləşdirmə strategiyası
- TV/Radio media planlaması
- Marketinq strategiyasının inkişafı
- OOH

## 04 İstehsalat

- Sərgi stendləri
- Dekorasiya və konstruksiyalar
- Promo məhsullar
- POSM
- Çap xidmətləri
- Videolar

## 05 Rəqəmsal

- Google reklamları
- Artırılmış Reallıq (AR) / Virtual Reallıq (VR)
- Meta reklamlar
- UI/UX dizaynı
- Proqramatik (DSP)
- Veb saytın hazırlanması

# Portfolio

2024

# TÜRKPA-nın “Heydər Əliyev və parlamentarizm” və “15 illik yubiley” tədbirləri

TÜRKPA-nın “Heydər Əliyev və parlamentarizm” və “15 illik yubiley”  tədbirlərinin təşkilatçıları olaraq türkdilli xalqların parlament nümayəndələri və iştirakçılar üçün yaddaqalan bir tədbir təşkil etdik. Adzone 360 bu tədbirləri yaradıcı konsepsiya, dizayn və istehsalat işləri ilə dəstəkləmişdir.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Kreativ istiqamət
- Dekorasiya
- Səhnə dizaynı
- Ekspozisiya ekranları
- Logistika və nəqliyyatın planlaşdırılması
- Texniki rəhbərlik və istehsalat
- Fərdi layihələr
- Tərcümə xidməti, tərcümə avadanlıqları və idarəetmə
- Audio və video tərtibatı
- Layihənin ilkin mərhələlərindən tamamlasına qədər bütün proseslərə nəzarət









# “Yaradıcı” brendi

Mədəniyyət Nazirliyi üçün yaradılmış “Yaradıcı” brendi mədəniyyət sənayesi sahələrinə dair maarifləndirmə və təbliğat fəaliyyətlərinin həyata keçirilməsi, yaradıcı məhsul və xidmətlərin yerli istehsalı, tanıtımı və ixracını təşviq edir.

**Bu layihədə Adzone 360 Yaradıcı-nın missiyasını özündə əks etdirən yeni və dinamik loqotip hazırladı. Loqotip yaddaqalan olmağı hədəfləyir, sadə və bənzərsiz vizual olaraq diqqəti cəlb edir.**












# Şahdağ Turizm Mərkəzi

Azərbaycanın ilk və ən böyük xizək kurortu Şahdağ Turizm Mərkəzi üçün Adzone 360 rəqəmsal marketinqdən tutmuş reklam istehsalatı və media xidmətinə qədər bir çox xidmətlər göstərmişdir.

**Şahdağ Turizm Mərkəzi üçün Adzone 360 çox sayda xidmətlər görüb:**

- Reklam istehsalatı və yerləşdirilməsi (OOH)
- Media xidməti (Radio və TVC)
- Rəqəmsal Marketinq (Meta ADS, Google ADS, Proqrammatic)








# “Agroxim” rebrendinq

Keyfiyyət və davamlılıq öhdəliyi ilə Agroxim yüksək məhsuldar gübrələrin idxalı ilə məşğul olur ki, bu da fermerlərə səmərəli məhsuldarlıq əldə etməyə imkan yaradır.

**Bu layihədə Adzone 360 olaraq Agroxim-in missiyasını özündə əks etdirən təzə və dinamik loqotip hazırladıq. Loqotip yaddaqalan olmağı hədəfləyir, sadə, bənzərsiz və vizual olaraq diqqəti cəlb edir.**












# Riyad Səyahət Sərgisi 2023, Səudiyyə Ərəbistanı

Azərbaycan Turizm Bürosu Səudiyyə Ərəbistanın paytaxtı Ər-Riyad şəhərində keçirilən beynəlxalq “Riyad Səyahət Sərgisi”ndə iştirak etdi.

Stend ziyarətçilərinə Azərbaycanın tarixi, mədəni irsi, UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmış tarixi abidələri, milli mətbəx nümunələri, ekoturizm, sağlamlıq, yay və qış turizmi imkanları üzrə potensialı haqqında ətraflı məlumat verilir.

Sərgi çərçivəsində digər iştirakçı ölkələri təmsil edən turizm şirkətləri ilə B2B formatlı görüşlər keçirilirb, qarşılıqlı əməkdaşlıq imkanları qiymətləndirilib.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Sərgi üçün sərgi stendı hazırlanıb
- Sərgi stendinin 3D dizaynını hazırlanıb
- Layihənin ilkin mərhələlərindən onun tamamlasına qədər bütün proseslərə nəzarəti həyata keçirilib












# Tiffany&Co.

Four Seasons otelinin “Eyvan” restoranında keçirilən tədbirdə xüsusi qonaqlar və Tiffany&Co. brendinin Rusiyadan dəvət olunmuş nümayəndələri iştirak etdi.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Floristika işləri
- Tekstil işləri
- Dizayn işləri
- Layihənin idarə edilməsi
- Brandwall istehsalı və quraşdırılması












# MasterChef All Star 2023

Azərbaycanda Türkiyənin ən populyar "MasterChef Turkey" müsabiqə proqramının TV8 kanalında yayımlanan növbəti epizodunun çəkilişləri həyata keçirilib.

**Adzone 360 layihə üçün tərəfdaşlıq, texniki və təşkilatçılıq xidmətləri göstərmişdir.**








# “Azərbaycan həftəsi” çərçivəsində keçirilmiş milli kulinariya tədbiri, Albaniya Respublikası

Albaniyanın Tirana şəhərində keçirilmiş “Azərbaycan Həftəsi” çərçivəsində milli kulinariya tədbiri zamanı yerli ictimaiyyət Azərbaycanın füsunkar mədəniyyət və incəsənəti ilə tanış olaraq, milli mətbəxin təamlarını dadmaq imkanı əldə etdi.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Sərgi üçün sərgi stendı hazırlanıb
- Sərgi stendinin 3D dizaynını hazırlanıb
- Layihənin ilkin mərhələlərindən onun tamamlasına qədər bütün proseslərə nəzarəti həyata keçirilib








# IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu

UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə Bakıda “Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar” mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Heydər Əliyev Mərkəzində rəsmi açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etmişdirlər. Forumda hökümət başçıları, nazirlər, müxtəlif beynəlxalq təşkilatların rəhbərləri, mədəniyyət sahəsində mütəxəssislər, xoşməramlı səfirlər, ekspertlər, jurnalistlər, görkəmli ziyalılar iştirak etmişdirlər.

**Adzone 360 sözügedən forum üçün, eləcə də 2013 və 2015-ci illərdə Azərbaycanda keçirilmiş forumlar üçün təşkilatçılıq xidmətlərini göstərmişdir.**










ADZONE
/360

# UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası

İyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva mərasimdə iştirak edib.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Kreativ istiqamət
- Fərdi layihələr
- İnteraktiv təcrübə
- Ekspozisiya ekranları və işarələr
- Audio və video istehsalı
- Texniki rəhbərlik və istehsalat







# VI Bakı Beynəlxalq Humanitar Forumu

Bakı Beynəlxalq Humanitar Forumu dünya ictimaiyyətinin siyasi, elmi və mədəni elitasının tanınmış nümayəndələrinin, o cümlədən tanınmış dövlət xadimlərinin, elmin müxtəlif sahələrində Nobel mükafatı laureatlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi tədbirdir.

2010-cu ildə Forumun təşəbbüskarları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və onun həmkarı Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev olub. Tədbir bir neçə məkanda baş tutmuş və bir neçə iclaslar keçirilmişdir.

**Bu tədbir üçün Adzone 360 çox sayda fərqli işlər görmüşdür:**

- Qeydiyyatın idarə edilməsi
- Dizayn
- Dekorasiya
- Səhnə dizaynı
- Ekspozisiya ekranları
- İşarələrin yerləşdirilməsi və istehsalı
- Logistika və nəqliyyatın planlaşdırılması
- Texniki rəhbərlik və istehsalat
- Kreativ istiqamət
- Fərdi layihələr
- İnteraktiv təcrübə
- Audio və video tərtibatı








# BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Bakıda keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak etmişdir.

“İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd” devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb.

**Adzone 360 sözügedən forum üçün təşkilatçılıq xidmətlərini göstərmişdir.**












# Zəfərimizin ildönümünə həsr olunmuş “Zəfər” festivalı

44 günlük Vətən müharibəsində tarixi zəfərimizin birinci ildönümünün şərəfinə Adzone 360 komandası ASAN, Bakı Şəhər İcra Hakimiyyəti və Müdafiə Nazirliyinin təşəbbüsü ilə festivallar, bazarlar, paradlar və bir sıra digər tədbirlərdən ibarət 10 günlük tədbir marafonu təşkil etmişdir.

Final akkordu 10-cu gündə Azərbaycanın bütün ulduzlarının iştirakı ilə 45 000-dən çox insanın iştirak etdiyi konsert baş tutmuşdur.











# ISESCO-nun Baş Konfransının XII sessiyası

Noyabrın 26-da Bakıda İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyası keçirilib.

Sessiyanın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva iştirak ediblər.

Sessiyanın açılış mərasimində beynəlxalq təşkilatların və xarici ölkələrin yüksək səviyyəli nümayəndələri, mədəniyyət və təhsil nazirləri, diplomatlar iştirak ediblər.

**Adzone 360 sözügedən forum üçün təşkilatçılıq xidmətlərini göstərmişdir.**








# UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyası

Bakıda UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyası keçirilib.

Dünyanın 100 ölkəsindən 800-dən çox nümayəndə qəbul edilib.

**Adzone 360 təşkilat komitəsinin tərəfdaşı kimi çıxış etmişdir. Təşkilatçılıq və kreativ istiqamətlər üzrə dəstək göstərmişdir.**










# Azercell GəncOL kiber idman çempionatı

Adzone 360 Azercell-in Gənc OL tarifinin istifadəçiləri üçün təşkil etdiyi PlayStation FIFA 14 kubokunun final mərhələsini keçirib.

Böyük final oktyabrın 26-da “Nizami” kinoteatrında baş tutub və 2000 iştirakçı arasında müsabiqənin üç qalibi müəyyən edilib.

**Adzone 360 tədbirin kreativ konsepsiyasının inkişafına, təşkilinə və marketinqinə dəstək vermişdir.**








# Bakı Prosesi

“Bakı Prosesi” Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2-3 dekabr 2008-ci il tarixlərində Bakıda keçirilən mədəniyyət nazirləri konfransında start götürüb. 10 il ərzində “Bakı Prosesi” çərçivəsində Adzone 360 iştirak etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum, UNAOC Qlobal Forumu kimi tədbirlər keçirilmişdir.

**Bu layihədə Adzone 360 “Bakı Prosesi”-nin 10 illiyinə həsr olunmuş kitabın üz qabığını və dizaynını hazırlamışdır.**











# “Global Influencer Day” tədbiri

“Global İnfluencer Day” tədbirində iştirak edənlər siyahısına “influencer”lar, brend sahibləri, investorlar, marketinq və PR mütəxəssisləri, media nümayəndələri və iş adamları dəvət edilmişdir.

Konqresdə iştirak edənlər turizm, bankçılıq, dəb, qida və gündəlik mallar, sağlamlıq və fitness kimi bir çox digər sahələrdən olan 5 qitənin və dünyanın 30 ölkəsinin nümayəndələri idi.

**Adzone 360 təşkilat komitəsinin tərəfdaşı kimi çıxış etmişdir. Təşkilatçılıq və kreativ istiqamətlər üzrə dəstək göstərmişdir.**











# Beynəlxalq İnnovasiya həftəsi

26 sentyabr - 3 oktyabr 2018-ci il tarixlərində Azərbaycanda ilk dəfə Beynəlxalq İnnovasiya həftəsi keçirilmişdir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Heydər Əliyev Mərkəzi tərəfindən həyata keçirilən birgə layihə çərçivəsində iştirakçılar yüksək texnologiyalar və innovasiyalar sahəsində ən son yeniliklərlə tanış ola, konfrans, forum və müsabiqələrdə iştirak edə, təşkil olunan sərgiyə baş çəkə, həmçinin dünyanın ən ağıllı robotu sayılan Sofiya ilə söhbət edə biliblər.

**Beynəlxalq İnnovasiya həftəsinin təşkilat komitəsinin üzvü olaraq, Adzone 360 təşkilatçılıq və marketinq istiqamətləri üzrə dəstək göstərmişdir.**










# Azərbaycan Respublikasının Milli Məclisinin 100 illik yubileyi

2018-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi 100 illik yubileyini qeyd edib. Bununla bağlı bir sıra tədbirlər keçirilmişdir.

**Adzone 360 bu tədbirləri yaradıcı konsepsiya, dizayn və istehsalat işləri ilə dəstəkləmişdir.**














Üzeyir Hacıbəyli küç. 69E,
Bakı, Azərbaycan, AZ1000

www.adzone.az

+994 10 228 7506 | info@adzone.az